# III BÖLMƏ.
# SAHİBARLIQ FƏALİYYƏTİ VƏ TURİZMİN İNKİŞAFI

**UOT 338.001.336**

*Vilayət İbrahim oğlu İSMAYILOV*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.e.d.*

## “DOİNG BUZİNESS” ƏSASINDA AZƏRBAYCANDA BİZNESİN SƏMƏRƏLİ VƏ KEYFİYYƏTLİ APARILMASI ASPEKTLƏRİ

*Xülasə*

Məqalədə “Doing Buziness” məlumatları əsasında müxtəlif ölkələrdə biznes fəaliyyətinin inkişaf etdirilməsi və biznesin asanlaşdırılmasının keyfiyyət göstəriciləri baxımından Azərbaycanın bu sahədə mövcud vəziyyəti təhlil edilmişdir.

190 dünya ölkəsində biznesin asan aparılması baxımından ölkələrin topladığı bal göstəricisi müqayisə edilərək müəyyənləşdirilmişdir ki, keçmiş sovetlər ittifaqı ölkələrindən ilk beşlikdə Gürcüstan, Litva, Estoniya, Latviya və Azərbaycan yerləşmişdir. Həmçinin, məqalədə ölkəmizdə biznesın səmərəli və keyfiyyətli aparılması, o cümlədən biznesin asanlaşdırılması baxımından qəbul edilmiş göstəricilərin indekslərinin müəyyənləşdirilməsi məqsədilə lazımi şəraitin formalaşması aspektləri göstərilmişdir.

***Məqsəd*** - Azərbaycanda biznesin səmərəlilik və keyfiyyət göstəricilərinin təhlili əsasında biznesin tənzimlənməsinin iqtisadi artıma təsirinin müəyyənləşdirilməsidir.

***Metodologiya*** - məqalədə ümumi iqtisadi, müqayisəli və statistik təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** - Azərbaycanda biznesin səmərəli və keyfiyyətli aparılması məqsədilə hərtərəfli şəraitin formalaşmasının mövcudluğu, biznesin tənzimlənməsinin iqtisadi artıma təsirini ifadə edən tədqiqat işləri üzrə məlumatların asanlıqla əldə edilməsi və bu istiqamətdə qiymətləndirmənin aparılmasının təmin edilməsindən ibarətdir.

***Açar sözlər - biznes, səmərəlilik, keyfiyyət, göstəricilər, reytinq, qiymətləndirilmə.***

### *Giriş*

Biznes fəaliyyətinin inkişaf etdirilməsi ölkə iqtisadiyyatının diversifikasiyası, rəqabətqabiliyyətliliyinin artırılması, əhalinin məşğulluğunun təmin edilməsi və işsizlik səviyyəsinin azaldılması, ölkədə istehlak mallarına tələbatın yerli resurslar hesabına təmin edilməsi və son nəticədə iqtisadi inkişafın yüksəldilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. İnkişaf etmiş ölkələrin sahibkarlığında müxtəlif fəaliyyət növlü müəssisələrin ümumi daxili məhsulda (ÜDM) və məşğulluqda tutduğu paya nəzər saldıqda görünür ki, Azərbaycanda da dayanıqlı iqtisadi inkişafın təmin edilməsində bu sferanın əsas iqtisadi artım amillərindən birinə çevrilməsi hökumətin qarşısında duran əsas və ümdə məsələlərdən biri hesab edilir.

Tədqiqatlarda qeyd edilir ki, kiçik və orta sahibkarlığın ÜDM-də payı aşağı, orta və yüksək gəlirli ölkələrdə 63-67%, məşğulluqda payı isə 57-78% hüdudunda təşkil edir [1, s. 6]. DB-nin hesabatında qeyd edildiyi kimi, biznesin aparılması üzrə etibarlı və səmərəli qaydalar həm sahibkarlıq fəaliyyəti, həm də inkişaf edən digər özəl sektorlar üçün maksimum əhəmiyyət kəsb edir. Belə ki, dünya üzrə yoxsulluğun ən aşağı həddinə son qoymaq və ümumi tərəqqini artırmaq üçün bizim şansımız bir o qədər də yoxdur [23]. Odur ki, dövlət tərəfindən ayrı-ayrı biznes fəaliyyətinin həm tənzimlənməsi, həm də mülkiyyət hüquqlarının müdafiə olunması mühüm vəzifə kimi həmişə ön planda yerləşir.

**Mövcud ədəbiyyatlara istinad**

Müxtəlif təsərrüfat formalarını əhatə edən biznes prosesi istehlakçıların tələbatını təmin edəcək məhsul və ya xidmətin yaradılmasına yönəlmiş bir-biri ilə qarşılıqlı əlaqəli işlərin cəmidir. Qarşılıqlı əlaqəli işlərin idarəetmə konsepsiyası biznes fəaliyyəti prosesinə müəssisənin mühüm resurslarından səmərəli istifadə kimi baxır və onların idarə edilməsini mühüm təşkilati sistemlərdən biri kimi nəzərdə tutur. Müxtəlif təsərrüfat formalarını əhatə edən biznes prosesinin üç növü fərqləndirilir:

- idarəetmə - korporativ idarəetmə və strateji menecment kimi sistemin fəaliyyətini idarə edən biznes proseslərdir;
- əməliyyat - təşkilatların əsas gəlir axınını yaradan fəaliyyətini təmsil edir (təchizat, istehsal, marketinq, satış və ya borcların tutulması);
- dəstəkləyici - müəssisələrə xidmət edənlər (mühasibat uçotu, işçi heyətinin seçilməsi, texniki dəstək).

Biznes-proseslər modelləşdirmə məqsədlərindən asılı olaraq müxtəlif formada təhlil edilə bilər. Biznes-proseslərin təhlili biznesin modelləşdirilməsi, funksional-dəyər təhlili, təşkilati strukturun formalaşdırılması, biznes-proseslərin yenidən qurulması, texnoloji proseslərin avtomatlaşdırılması zamanı tətbiq olunur.

Cari fəaliyyətin təhlili metodlarından biri biznes prosesinin modelinin qurulmasıdır.

Biznes proseslərinin vizuallaşdırılması məqsədi ilə müxtəlif formalı blok-sxemlərdən istifadə olunur. Biznes proseslərin modelləşdirilməsində tətbiq edilən modellər içərisində BPMN (işlərin funksional ardıcıllığı), EPC (işlərin funksional ardıcıllığı), İDEF0 (işlərin məntiqi ardıcıllığı) və s. geniş tətbiq edilir [24].

F.Teylor və U.E.Deminqin vaxtlarından menecerlər daim biznes proseslərini yaxşılaşdırmaq yollarını axtarırlar. Son 20 il ərzində müxtəlif sahələrdə gah qənaətcil istehsal, gah altı siqm, gah ecayl tətbiq edilmişdir ki, bu da şirkətlərə daha səmərəli və qənaətlə işləməyə köməklik etmişdir. Lakin, daha ətraflı təhlil apararaq, alimlər müəyyənləşdirmişlər ki, biznes-proseslər üzrə layihələrin 20%-dən çoxu heç bir irəliləyişlər verməmiş, 80 %-i isə müvafiq irəliləyişə nail ola bilmişdir, bir ildən sonra onların 73%-nin əldə etdiyi nəticə adi haldakından daha yüksək olmuş, lakin iki ildən sonra isə onların sayı 44%-ə düşmüşdür. Nəticədə, bütün təşəbbüs göstərən müəssisələrin 1/3 hissəsində (təxminən 33%) mənfi nəticə alınmışdır [25].

Biznesin aparılması yerli firmalara tətbiq olunan normativ mühitin bir sıra mühüm aspektlərini əhatə edir. Biznesin aparılması biznesə başlamaq, tikintiyə icazə almaq, elektrik enerjisi almaq, mülkiyyətin qeydiyyatı, kredit almaq, minoritar sərmayədarların müdafiəsi, vergilərin ödənilməsi, beynəlxalq (sərhədyanı) ticarət, müqavilələrin icrasını təmin etmək və qeyri-ödəniş qabiliyyətinin nizama salınmasını təmin etmək üçün kəmiyyət tənzimləmə göstəricilərini özündə ehtiva etməklə bərabər işçilərin işə qəbul edilməsi xüsusiyyətlərini də əks etdirir. Biznesin aparılması işçilərin məşğulluq göstəriciləri üzrə iqtisadiyyatın reytinqlərini təqdim etməsə də, bu məsələni biznesin asanlığının ümumi balına daxil etsək və ya biznesin asanlığının reytinqi kimi daxil etsək də o, bu göstəricilərə dair heç bir məlumat təqdim etmir [2, s. 5].

Beləliklə, biznesin asan aparılması prosesi həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu baxımdan da, biznesin asan aparılması indiqatorlarından istifadə edilir və DB tərəfindən hər il onların indeksi hesablanır. İndeksin hesablanması üsulu ildən-ilə bir qədər dəyişə bilər. Biznesin asan aparılması reytinqi yalnız formal göstəriciləri nəzərə alır, lakin ölkədə biznesi aparılmasının əsas institusional (mədəni) şərtlərini, məsələn, etimad göstərmə səviyyəsini, sahibkarlara münasibəti, gəlirliliyi və s. nəzərə almır [Zoltan, 2010].

V.S.Lapşin tədqiqatlarında proseslərin idarə edilməsinin nəzəri və praktiki aspektləri sırasında biznes-proseslərin idarə edilməsi prosesinə yanaşma nöqteyi-nəzərindən baxaraq müştərilərə dəyər verilməsinə istiqamətləndirilmiş müəssisələrin identifikasiyasindan ibarət biznes-proseslərin səmərəli idarə olunma sistemi haqqında müvafiq nəticəyə gəlmişdir [Lapşin, 2015: c. 385].

**Biznesin asan aparılması istiqamətində vaxt və dəyər amillərinin qiymətləndirilməsi**

Dünya Bankının “Doing Business 2020” layihəsi 190 ölkə və ayrı-ayrı şəhərlərdə submilli və

regional səviyyələrdə sahibkarlıq fəaliyyəti və onların hüquq-tətbiqi sahəsində obyektiv tənzimləmə tədbirlərini nəzərdə tutur. "Doing Business 2020" layihəsi 2002-ci ildən etibarən artıq 17-ci ildir ki, 190 ölkədə "Biznesin aparılması" sahəsində zaman keçdikcə sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və mülkiyyət hüquqlarının müdafiəsi üzrə kəmiyyət göstəricilərini müqayisəli şəkildə özündə əks etdirir.

"Doing Business 2020" tədqiqatı göstərir ki, inkişaf etməkdə olan ölkələr biznesin aparılmasının asanlaşdırılmasına görə artıq inkişaf etmiş ölkələrə çatır, lakin onlar arasında yenə də böyük fərqlər qalmaqdadır. Bu baxımdan da biznesin asan açılmasına vaxt sərfi və sahibkarların hər işçiyə düşən gəlir xərclərinin hesablanması xüsusilə əhəmiyyətlidir. Fikrimizcə, bu göstəricilərin müxtəlif inkişaf səviyyəli ölkələrdə böyük fərq yaratması biznesin asan aparılması üzrə dövlətin tənzimləmə şərtləri əsasında təmin edilir. Azərbaycanda da bu istiqamətdə hökumətin qəbul etdiyi Dövlət Proqramları, həmçinin "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" ndə nəzərdə tutulmuş beş mühüm hədəflərin reallığa çevrilməsinin xüsusi əhəmiyyəti danılmazdır [1, s. 18-79 ].

Yüksək, aşağı və orta gəlirli ölkələrdə biznesin açılması dəyərinin xərclərinə nəzər salaq (şəkil 1).




***Şəkil 1. 2004-2020-ci illərdə ölkələr üzrə biznesin açılması dəyərinin azalma dinamikası***

*Qeyd: "Doing Business" in verilənlər bazası əsasında müəllif tərtib etmişdir.*

Məlumatlar göstərir ki, aşağı gəlirli iqtisadiyyatda sahibkar adətən adambaşına düşən gəlirin təxminən 50%-ni şirkətlərini yaratmaq üçün xərclədiyi halda, bu göstərici iqtisadiyyatda yüksək gəlirli sahibkarlar üzrə 4,2% təşkil edir. Orta hesabla biznes açmaq üçün 50-ci sıradan sonra yerləşmiş ölkələrdə TOP 20 ölkələrindən təxminən altı dəfə daha çox vaxt tələb olunur. Həmçinin, bu göstərici üzrə aşagı və orta gəlirli ölkələrin biznesin açılması dəyəri kəskin azalan xətti reqressiya modelinə uyğun gəlir və modelin riyazi ifadəsi

$$y=-5,8627x+102,76, \qquad (1)$$

burada: x- ölkələr üzrə sahibkarların biznesin açılmasına sərf etdiyi hər nəfərə düşən gəlirin xərc faizi;

- 5,8627-əmsal olub, illər üzrə bu göstəricinin azalmasını əks etdirir.

Riyazi modelin reqressiya əmsalının $R^2$=0,8425 modeldə avtokorrelyasiyanın qəbul edilmədiyini əks etdirir.

"Doing Business" göstəriciləri üzrə inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş ölkələrə çatmasına kifayət qədər imkanları vardır. Məsələn, hüquqi haqlar üzrə göstəricilər aşağı və orta gəlirli ölkələr arasında ən zəif formada qalır. "Doing Business" normativ (tənzimləyici) mühitin yaxşılaşdırılması üçün ölkələr tərəfindən görülən mühüm işləri nəzərə alır (tanıyır). 10 ən inkişaf etmiş iqtisadiyyatlı ölkələrin səyləri belə biznesin açılması, tikinti icazələrinin alınması və beynəlxalq ticarət

kimi sahələrə diqqəti cəlb etməyi tələb edir. Ümumilikdə, ən yüksək bal toplayan ölkələrin iqtisadiyyatı belə bir sıra xüsusiyyətlərə, o cümlədən normativ tələblərə əməl olunması üçün onlayn platformalardan və elektron sistemlərdən geniş istifadə olunması kimi xüsusiyyətlərə malikdir [2, s. 9].

**Biznesin asan aparılması indeksinin strukturu**

Biznesin asan aparılması indeksi (ing. Ease of Doing Business Index) - dünya ölkələri arasında sahibkarlıq fəaliyyətinin sadəliyini müqayisə etmək üçün illik məlumatlar əsasında Dünya Bankı tərəfindən tərtib edilən indeksdir [2]. İndeks iqtisadçı Oliver Hart tərəfindən yazılmış elmi məqalə əsasında 2003-cü ildə iqtisadçılar Simeon Dankov və Gerhard Pol tərəfindən hazırlanmışdır.

İndeksin yüksək qiymətləndirmələri biznesin tənzimlənməsinin keyfiyyəti və sadəliyini, eləcə də mülkiyyət hüquqlarının qorunmasının keyfiyyətini göstərir. İndeksin qurulmasında məqsəd dövlətin biznes tənzimlənməsinin iqtisadi artıma təsirinə tədqiqat işlərinin məlumatlarını təmin etməkdən ibarətdir. Noyabr 2001-ci ildə layihənin başlanğıcından 800-dən çox elmi tədqiqat içləri nəşr edilmişdir ki, burada da indeksin və ya əvvəlki tədqiqatlarla bağlı təklif edilmiş bir və ya bir neçə indiqatorlardan istifadə edilmişdir. Tədqiqatın nəticələri biznes qaydalarının yaxşılaşdırılması və iqtisadi artım arasında güclü əlaqənin olduğunu ifadə edir [22] .

Digər bu cür tədqiqatlardan fərqli olaraq, biznesin aparılmasının asanlıq indeksi yalnız sahibkarlıq fəaliyyətinin aparılması ilə bağlı qanun, qərar və qaydaların öyrənilməsi və kvantifikasiyasına əsaslanır. İndeks infrastruktur, inflyasiya, cinayətkarlıq, biznes gəlirləri və s. kimi ümumi şərtləri nəzərə almır.

Ümumi indeks on daxili indiqatora əsaslanır:

* Biznesin başlanması-müəssisənin yaradılması üçün prosedurlar, vaxt, xərclər və minimum kapital [4].

* Tikintiyə icazə alma işləri-anbarın tikintisi üçün prosedurlar, vaxt və xərclər [5].

* Elektrik təchizatının alınması-prosedur, vaxt, elektrik təchizatı üçün xərclər [6].

* Əmlakın qeydiyyatı-kommersiya daşınmaz əmlakının qeydiyyatı üçün prosedurlar, vaxt və xərclər [7].

* Kreditin alınması-hüquqi haqların gücü, kredit məlumatlarının dərinliyi [8].

* İnvestorların hüquqlarının qorunması-maliyyə göstəricilərinin açıqlığı, rəhbərliyin məsuliyyəti və investorların məhkəmə iddialarının asanlığı.

* Vergilərin ödənilməsi-vergi məbləği, vergi hesabatlarının hazırlanması üçün vaxt, mənfəət payı kimi ümumi vergi.

* Beynəlxalq ticarət-sənədlərin sayı, xərcləri, ixrac və idxal üçün tələb olunan vaxt.

* Müqavilələrin təmin edilməsi-borcun ödənilməsinə məcburetmə prosedurları, vaxt və xərclər.

* Müəssisənin bağlanması-qeyri-ödəniş qabiliyyətli firmanın bağlanması üçün faiz ödənişləri, vaxt və əlavə xərclər.

2019-2020-ci illərdə biznesin aparılmasının asanlaşdırılması üzrə reytinqin hesablanmasında nəzərə alınan üç və ya daha çox sahədə ən böyük inkişafları olan10 ölkənin göstəricilərini nəzərdən keçirək (cədvəl 1).

Məlumatların təhlili göstərir ki, 2020-ci ildə biznesin aparılmasının asanlaşdırılması göstəricilərində 3 və daha çox sahədə inkişafa malik olan ölkər sırasında belə çox da yüksək reytinqə malik olmayan Filippin, Toqo, Tacikistan, Pakistan, Cibuti və Seneqal kimi ölkələr də 2019-cu ildə yerləşdikləri reytinq sırasından 18-40 pillə hüdudunda yüksələ bilmişlər. Bu ölkələr içərisində ən yüksək reytinqə malik olan Bəhreyn, Keniya, Səudiyyə Ərəbistanı və İordaniya da müvafiq göstəricinin müqayisəsində 18-30 pillə hüdudunda yüksələ bilmişlər. Müqayisə edilən dövr ərzində biznesin aparılmasının asanlaşdırılması göstəricilərinə əsasən hesablanmış baldan ən yüksək meyletmə Səudiyyə Ərəbistanı (+6,15%), Toqo (+5,20%) və Pakistanda (+3,08%) olmuş, ən az meyletmə Tacikistan (+0,80%) və Cibutidə (+0,82%) olmuşdur. Onu da qeyd etmək lazımdır ki, reytinq sırasında 39 pillə yüksələn Filippində meyletmə azalma istiqamətində olmuş və bu da (-1,10%) təşkil etmişdir. 2020-ci ilin reytinq sırasına nəzər yetirdikdə görünür ki, ilk onluqda yer almış ölkələrdə ən çox artım pilləsi ABŞ və İsveçdə (+2 pillə), ən çox azalma pilləsi isə Norveçdə (-2 pillə) olmuşdur.

*Cədvəl 1*

***Biznesin aparılmasının asanlaşdırılması üzrə üç və ya daha çox sahədə ən böyük inkişafları olan 10 ölkənin reytinq göstəriciləri***

| № | Ölkələr | 2020-ci ildə reytinq sırası | 2019-cu ildə reytinq sırası | 2019-cu ilə nisbətən 2020-ci ildə reytinq sırasında pillə artımı | 2019-cu ilin balına görə 2020-ci ildə azalma və ya artım, % |
|---|---|---|---|---|---|
| 1 | Toqo | 97 | 137 | 40 | +5,20 |
| 2 | Cibuti | 112 | 152 | 40 | +0,82 |
| 3 | Filippin | 95 | 124 | 39 | -1,10 |
| 4 | Səudiyyə Ərəbistanı | 62 | 92 | 30 | +6,15 |
| 5 | İordaniya | 75 | 104 | 29 | +2,23 |
| 6 | Pakistan | 108 | 136 | 28 | +3,08 |
| 7 | Keniya | 56 | 80 | 24 | +0,79 |
| 8 | Tacikistan | 106 | 128 | 22 | +0,80 |
| 9 | Bəhreyn | 43 | 62 | 18 | +2,47 |
| 10 | Seneqal | 123 | 141 | 18 | +2,06 |

*Qeyd: [22] məlumatları əsasında müəllif tərtib etmişdir.*

Biznesin aparılmasının asanlaşdırılması göstəriciləri üzrə reytinqdə iştirak edən 190 ölkə içərisində son ildə bala görə ən yüksək artım meyli Mavritaniyada (+8,99%), San-Marinoda (+8,10%) və Namibiyada (+8,02%), ən çoz azalma meyli isə Şri-Lankada (-13,92%), Bolqarıstanda (-4,11%) və Sirinamda (-4,04%) olmuşdur.

Biznesin aparılmasının asanlaşdırılması üzrə Azərbaycanın reytinqinin 2019-cu ilə nisbətən 2020-ci ildə 9 pillə aşağı düşməsinə baxmayaraq bal qiymətləndirilməsində azalma meyli çox cüzi, yəni (-0,05%) təşkil etmişdir. Qeyd etmək lazımdır ki, keçmiş sovetlər ittifaqı ölkələri içərisində bu göstərici Qazaxıstanda (-1,94%), Litvada (-0,38%), Gürcüstanda (-0,35%) təşkil etməsinə baxmayaraq həmin ölkələr müvafiq olaraq 25, 11 və 7-ci pillələrdə yer almış və biznesin asan aparılması istiqamətində öndə gedən ölkələr hesab edilir.

Biznesin aparılmasının asanlaşdırılması göstəricilərinin yüksək qiymətləndirmələri biznesin tənzimlənməsinin səmərəliliyi və keyfiyyətini, onun sadəliyini, həmçinin kiçik və orta sahibkarların mülkiyyət hüquqlarının qorunmasının keyfiyyətini əks etdirir. Biznesin asan aparılması indeksinin qurulmasında dövlətin məqsədi biznes tənzimlənməsinin iqtisadi artıma təsirini ifadə edən tədqiqat işlərinin məlumatlarının asanlıqla əldə edilməsi və bu istiqamətdə qiymətləndirmənin aparılmasının təmin edilməsindən ibarətdir.

**Biznesin asan aparılmasının iqtisadi artımın tənzimlənməsinə təsiri**

Biznesin asan aparılması indeksinin məlumatlarından 3000-dən çox elmi işdə istifadə edilmişdir. Bu tədqiqatlarda qeyd edilir ki, tənzimlənmənin təkmilləşdirilməsi iqtisadi artıma çox güclü təsir göstərir. Ölkələrin ən pis göstəricili rübündən ən yaxşı rübünə keçid ÜDM-in illik 2,3 faiz artırılmasını nəzərdə tutur. Bundan əlavə iqtisadiyyat və sosial elmləri şöbələrində 7000-dən çox iş sənədlərində “Doing Business”-in məlumatlarından istifadə edilir. Belə əsərlərin müəllifləri arasında iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Oliver Hart da qeyd edilməlidir.

İndeksin müxtəlif subkomponentləri tərəfindən bu sahədə işlərin yaxşılaşdırılması üçün xüsusi təkliflər verilir. Onların bir çoxu həyata keçirilməsi üzrə nisbətən sadə ola bilər və şübhə doğurmur (rüşvət tələb edən ağır qaydalardan faydalana bilən korrupsiyalaşmış məmurlar istisna olmaqla). Beləliklə, biznesin asan aparılması indeksi bir çox ölkələrə təsir etmiş, bunlardan bəziləri, məsələn, top 25 siyahısında olan ölkələr bu indeksdə maksimum mövqeyə nail olmaq üçün açıq şəkildə qarşılarına hədəf qoyurlar.

Biznesin asan aparılması indeksini əhatə edən illik hesabatlara iqtisadi azadlıq indeksləri və qlobal rəqabətqabiliyyətliliyi əks etdirən məruzəni aid etmək olar. Belə ki, iqtisadi azadlıq indeksləri və xüsusilə də qlobal rəqabətqabiliyyətliliyi əks etdirən məruzədə inflyasiya və infrastruktur kimi iqtisadi artıma təsir edən daha çox amillər nəzərdən keçirilir. Lakin, bu amillər nisbətən subyektiv və qeyri-müəyyən ola bilər, çünki onların bir çoxu tədqiqatlar vasitəsilə ölçülür və onların normativ aktlarla müqayisədə tez bir zamanda dəyişdirilməsi çətindir.

12 yanvar 2018-ci il tarixində Dünya Bankının baş iqtisadçısı P. Romer, indeksin keçmiş versiyalarının ən azı dörd il öncədən korrektirovka ediləcəyini və yenidən hesablanacağını açıqlamışdır. Romer Çilidən əvvəl üzr istəyərək bildirmişdir ki, indeksə görə məsuliyyət daşıyan qrupun keçmiş direktoru dəfələrlə onun metodologiyasını manipulyasiya etmiş, sol Prezidenti Mişel Baçhelet administrasiyası dövründə ölkənin reytinqlərini haqsız olaraq cəzalandırmışdır. Buna cavab olaraq Baçhelet açıqlamışdır ki, Çili rəsmi olaraq Dünya Bankından tam araşdırma tələb edəcəkdir [9-10].

Dünya ölkələrində bölgələr üzrə biznesin tənzimlənməsinin səmərəliliyi və keyfiyyəti göstəricilərinin müqayisəli təhlilinə nəzər salsaq görürük ki, biznesin tənzimlənməsinin ən yüksək səmərəlilik göstəricisi yüksək gəlirli ölkələrdə (84 bal), orta səmərəlilik göstəricisi Şərqi Asiya-Sakit okean ölkələrində (72 bal) və ən aşağı səmərəlilik göstəricisi isə Cənubi Afrika ölkələrində (59 bal) təşkil edir.

Dünya ölkələrində bölgələr üzrə biznesin tənzimlənməsinin keyfiyyət göstəricilərində isə ən yüksək göstərici yüksək səviyyəli ölkələrdə 73,5 bal, orta göstərici Şərqi Asiya-Sakit okean ölkələrində 56 bal və ən aşağı göstərici Cənubi Afrika ölkələrində isə 38 bal təşkil edir. Təhlilə əsasən qeyd etmək olar ki, biznesin asan aparılması istiqamətində əsas amillərdən biri biznes prosesinin tənzimlənməsidir ki, bu da onun səmərəliliyi və keyfiyyəti ilə xarakterizə olunur. Bu baxımdan biznesin asan aparılması prosesinin yüksək göstəricilər səviyyəsi yüksək gəlirli ölkələr və Avropa-Sakit Okean ölkələrində 78-84 bal hüdudundadır. Eyni zamanda biznesin tənzimlənməsinin ən yüksək keyfiyyət göstəricisi də həmin bölgənin ölkələrində olmaqla 66-73,5 bal hüdudundadır (şəkil 2) [3, s. 6].




***Şəkil 2. Dünya ölkələrində bölgələr üzrə biznesin tənzimlənməsinin səmərəliliyi və keyfiyyəti arasındakı fərq.***

*Qeyd: [3, s. 6] məlumatları əsasında müəllif tərtib etmişdir.*

Məlumatlardan görünür ki, dünya ölkələrində biznesin tənzimlənmə səviyyəsi yüksək gəlir səviyyəli regionlar üzrə azalma dinamikasına malikdır. Bu azalma

$$y=-4x+85,429, \quad (2)$$

reqressiya modelinə uyğun gəlir. Modeldə x dəyişəninin mənfi işarəsi tənzimlənmə səviyyəsinin ölkələr üzrə göstəricinin azalma dinamikasına malik olduğunu göstərir. Həmçinin, modelin reqressiya əmsalının $R^2$ =0,93 kəmiyyəti, bu model üçün avtokorrelyasiyanın qəbul edilmədiyinin şərtləndirildiyini ifadə edir.

Beləliklə, dünya ölkələrində biznesin tənzimlənməsinin səmərəliliyi və keyfiyyəti arasında fərq kifayət qədərdir. Bu fərq yüksək gəlir səviyyəsinə malik olan ölkələrdə və Avropa-Mərkəzi Asiya ölkələrində digər region ölkələrinə nisbətən azdır. Fikrimizcə, biznesin tənzimlənməsinin səmərəliliyi və keyfiyyəti arasındakı fərqin az olması göstərir ki, həmin ölkələrdə biznesin asan aparılması digər regionlara nisbətən rahatdır və bu da onlarda biznesin dayanıqlı inkişafının təmin edilməsinə əlverişli şəraitin olması ilə əsaslandırıla bilər.

**Biznesin asan aparılmasında ölkələrin reytinqinin müqayisəli təhlili**

Dünyanın 190 ölkəsinin 2008-2020-ci illər ərzində biznesin asan aparılması üzrə reytinq cədvəli əsasında keçmiş sovetlər ittifaqı ölkələrinin göstəricilərinə nəzər salaq (cədvəl 2).

***Cədvəl 2***

***Biznesin asan aparılması göstəriciləri üzrə reytinq (keçmiş sovetlər ittifaqı ölkələri)***

| Ölkələr | Bal | Əvvəlki ilə nisbətən meyletmə | 2020 | 2019 | 2018 | 2017 | 2016 | 2015 | 2014 | 2013 | 2012 | 2011 | 2010 | 2009 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Gürcüstan | 83,7 | -0,35 | 7 | 6 | 9 | 16 | 24 | 15 | 8 | 9 | 16 | 12 | 11 | 15 | 18 |
| Litva | 81,6 | -0,38 | 11 | 14 | 16 | 21 | 20 | 24 | 17 | 27 | 27 | 23 | 26 | 28 | 26 |
| Estoniya | 80,6 | +1,07 | 18 | 16 | 12 | 12 | 16 | 17 | 22 | 21 | 24 | 17 | 24 | 22 | 17 |
| Latviya | 80,3 | +0,71 | 19 | 19 | 19 | 14 | 22 | 23 | 24 | 25 | 21 | 24 | 27 | 29 | 22 |
| Qazaxıstan | 82,9 | -1,94 | 25 | 28 | 36 | 35 | 41 | 77 | 50 | 49 | 47 | 59 | 63 | 70 | 71 |
| Rusiya | 78,2 | +1,71 | 28 | 31 | 35 | 40 | 51 | 62 | 92 | 112 | 120 | 123 | 120 | 118 | 111 |
| Azərbaycan | 76,7 | -0,05 | 34 | 25 | 57 | 65 | 63 | 80 | 70 | 67 | 66 | 54 | 38 | 33 | 96 |
| Ermənistan | 74,5 | +0,86 | 47 | 41 | 47 | 38 | 35 | 45 | 37 | 32 | 55 | 48 | 43 | 44 | 39 |
| Moldova | 74,4 | +2,21 | 48 | 47 | 44 | 44 | 52 | 63 | 78 | 83 | 81 | 90 | 94 | 103 | 92 |
| Belorus | 74,3 | +3,47 | 49 | 37 | 38 | 37 | 44 | 57 | 63 | 58 | 69 | 68 | 58 | 85 | 110 |
| Ukrayna | 70,2 | +0,64 | 64 | 71 | 76 | 80 | 83 | 96 | 112 | 137 | 152 | 145 | 142 | 146 | 144 |
| Özbəkistan | 69,9 | +1,44 | 69 | 76 | 74 | 87 | 87 | 141 | 146 | 154 | 166 | 150 | 150 | 138 | 138 |
| Qırğızıstan | 67,8 | +7,09 | 80 | 70 | 77 | 75 | 67 | 102 | 68 | 70 | 70 | 44 | 41 | 68 | 94 |
| Tacikctan | 61,3 | +0,80 | 106 | 128 | 123 | 128 | 132 | 166 | 143 | 141 | 147 | 139 | 152 | 159 | 153 |
| Türkmənistan | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |

*Qeyd: [22, s. 3-6] əsasında müəllif tərtib etmişdir*

Dünya ölkələrinin bu sahədə ilk reytinqi 2005-ci ildə tərtib edilmiş və 2006-cı ilin əvvəlinə olan cari məlumatları özündə ehtiva etmişdir. Bu məlumatlarda Yeni Zelandiya birinci sırada olmuşdur. 2007-ci ildən 2016-cı ilə qədər reytinq cədvəlində Sinqapur daimi olaraq birinci yerdə olmuş və 2017-ci ildə liderliyə təkrarən Yeni Zelandiya nail olmuşdur [22, s. 3-6].

Məlumatların təhlili göstərir ki, keçmiş sovetlər ittifaqı ölkələrində 2019-cu ilə nisbətən bal göstəricisinə görə 2020-ci ildə meyletmə üzrə birinci sırada Qırğızıstan (+7,09), ikinci sırada Belarus (+3,47) və üçüncü sırada Moldova (+2,21) yer almışdır. Həmçinin 2019-cu ilin bal göstəricisinə görə pillə reytinqindən ən yüksək yuxarı istiqamətə sıçrayış Ukrayna və Özbəkistanda (7 pillə), Tacikistanda 22 pillə təşkil etmişdir. Reytinq sırasında ən çox aşağı istiqamətə düşmə isə Belarusda (12 pillə), Qırğızıstanda (10 pillə), Azərbaycanda (9 pillə) olmuşdur.

2008-2020-ci illər ərzində reytinq sırasında ən çox irəliyə yüksəlmə Rusiyada-83 pillə, Ukraynada-80 pillə, Özbəkistanda-69 pillə, Azərbaycanda-62 pillə və Belorusda-61 pillə təşkil etmişdir. Müqayisə edilən dövrdə reytinq sırasında geri istiqamətə düşmə ən çox Ermənistanda-8 pillə və Estoniyada-1 pillə olmuş, lakin bəzi ölkələrdə, məsələn, Estoniyada-1 pillə geriyə sıçrayış olmuşdur.

Beləliklə, keçmiş sovetlər ittifaqı ölkələri içərisində biznesin asan aparılması göstəricisinə görə ən yüksək reytinqə Gürcüstan (7-ci sıra), Litva (11-ci sıra), Estoniya (18-ci sıra), Latviya (19-cu sıra), Qazaxıstan (25-ci sıra), Rusiya (28-ci sıra) və Azərbaycan (34-cü sıra) nail olmuşdur. Reytinq sırasında ən aşağıda yer almış ölkələrə Özbəkistan (69-cu sıra), Qırğızıstan (80-ci sıra) və Tacikistan (106-cı sıra) daxildir.

Müqayisəni Avropa ölkələrindən Polşa, İtaliya, qonşu ölkələrdən Türkiyə və İran, həmçinin Səudiyyə Ərəbistanı ilə edək. Məlumatlara əsasən qeyd edə bilərik ki, həmin ölkələr sırasında Türkiyə birinci (33-cü sıra), Azərbaycan ikinci (34-cü sıra), Polşa üçüncü (40-cı sıra), İtaliya dördüncü (58-ci sıra), Səudiyyə Ərəbistanı beşinci (62-ci sıra) və İran altıncı (127-ci sıra) yerdə sıralanmışdır. Bu ölkələr içərisində 2008-2020-ci illərdə ən çox reytinq yüksəlməsi Azərbaycanda 62 sıra, Polşada 34 sıra, Türkiyədə 24 sıra və İranda 8 sıra olmuş, eyni zamanda bəzilərinin reytinqində aşağıya doğru, məsələn, Səudiyyə Ərəbistanında-39 sıra, İtaliyada-5 sıra azalma müşahidə edilmişdir.

Biznesin asan aparılması üzrə keçmiş sovetlər ittifaqı ölkələrinin son üç ildə bal qiymətləndirilməsini nəzərdən keçirək (şəkil 3).




***Şəkil 3. 2018-2020-ci illərdə keçmiş sovetlər ittifaqı ölkələrinin biznesin asan aparılması üzrə qiymətləndirilməsi***

*Qeyd: [3, s. 5] məlumatları əsasında müəllif tərtib etmişdir.*

Biznesin asan aparılması üzrə müvafiq ölkələrin topladığı bal göstəricisinin təhlilində aydın görünür ki, bu sahədə ilk sırada Gürcüstan yerləşir və müvafiq illərdə göstəricinin artım meyli +0,9 bala bərabərdir. 2-5 sıralarda yerləşmiş Litvada bu göstərici +1,06 bala, Estoniyada +0,11 bala, Latviyada +1,04 bala və Azərbaycanda +5,19 bala bərabərdir. İlk beşlikdə yerləşmiş bu ölkələrin göstəricisinə əsasən qeyd etmək olar ki, Azərbaycan ən yüksək artıma malikdir və bu artım 2018-ci ilə nisbətən 2019-cu ildə +7,1 bal və ya 9,93%, 2020-ci ildə isə +5,19 bal və ya 7,3% təşkil etmişdir.

2020-ci ildə biznesin asan aparılması göstəricisinin bal qiymətləndirilməsi artımına görə 2-6-cı sıralarda Qazaxıstan (+5,79 bal və ya 7,5%), Tacikistan (+4,24 bal və ya 7,49%), Ukrayna (+2,9 bal və ya 4,3%), Qırğızıstan (+2,04 və ya 3,1%) və Rusiya (+1,44 və ya 1,9%) yer almışlar. Onu da qeyd etmək lazımdır ki, 2019-cu ilə nisbətən 2020-ci ildə müqayisə edilən ölkələr sırasında yalnız Azərbaycan (-1,94 bal və ya 2,5%) və Belarusda (-1,47 bal və ya 1,94%) bu göstəricinin azalması müşahidə edilmişdir [3, s. 5].

Apardığımız təhlilə əsasən qeyd etmək olar ki, Azərbaycanba biznesin asan aparılması göstəricisinə görə çox əlverişli şərait formalaşmışdır, bütün bunların əldə olunması bilavasitə dövlət rəhbərliyinin, o cümlədən bu istiqamətdə fəaliyyət göstərən bütün təşkilatların ölkədə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir. Elə bu səbəbdən də Azərbaycanın reytinqi 2008-ci ilin göstəriciləri üzrə 96-cı pillədən 2019-2020-ci illərdə yuxarıya doğru yüksələrək 62-71 pillə hüdudunda önə keçmiş, müvafiq olaraq 25-ci və 34-cü pillələrdə yer almışdır.

**DB-nin müstəqil ekspert qrupu tərəfindən biznesin asan aparılması metodologiyasına tənqidi yanaşma**

Hər bir ölkə üçün hesablamalar bir və ya iki şəhər üçün aparılır ki, bu da böyük ölkələrin regionlararası yekcinsliyinin yüksək olmasını nəzərə almır. Məsələn, Rusiya üçün hesablama yalnız Moskva və Sankt-Peterburq ilə aparılır. Biznesin aparılmasının regional şərtlərini müqayisə etmək məqsədilə reytinqdə tətbiq edilən yanaşmalara oxşarlıq edilir. Məsələn, Rusiyada ASI investisiya mühitinin Dövlət Milli reytinqi hazırlanmışdır, elmi ədəbiyyatda onlarla indiqatorlar tətbiq olunur [Baranov, 2015: s.69-103; Barinova, 2018: s.92-116] .

Əmək qanunvericiliyinə dair biznesin aparılması metodologiyasına Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən tənqidi yanaşılır, çünki o, yalnız məşğulluğun çevik tənzimlənməsinin tərəfdarıdır [14]. Belə ki, əmək qanunvericiliyinə görə ölkədə iqtisadi səbəblər ucundan işçini işdən azad etmək nə qədər asan olarsa, həmin ölkənin reytinqi də bir o qədər yaxşılaşır. İşçilərin məşğulluq indeksi “Doing Business 2008”-də yenidən nəzərdən keçirilmiş və bu da Beynəlxalq Əmək Təşkilatının 188 Konvensiyasına tam uyğunluğunu təmin etmək üçündür. Sonradan isə bu göstərici ləğv edildi və ITUC, Doing Business hesabatına cavab olaraq 2014-cü ildə hüquq qlobal debüt indeksinə bu hüququ verdi [Tamara, 2014].

2013-cü ilin iyun ayında Dünya Bankının prezidenti tərəfindən təyin edilmiş və Cənubi Afrikadan T. Manuel tərəfindən rəhbərlik edilən müstəqil ekspert qrupu hesabatın və indeksin düzgün şərh edilməsinin, göstəricilər və informasiya bazasının darlığının, məlumatların toplanması metodologiyasının və ekspert baxışının olmaması ilə bağlı narahatlığını ifadə edən bir xülasə dərc etmişdir. O, bu hesabatı saxlamağı, lakin ümumi reytinqləri istisna etməyi və kollegial baxış prosesini (xüsusilə) tətbiq etməyi tövsiyə etmişdir. Vergilərin ödənilməsi və işçilərin işə götürülməsi məsələlərinə gəlincə, Manuel qeyd etmişdir ki, "sonuncular artıq hesabatın reytinqlərindən xaric ediliblər. Biznesin aparılmasının bu aspektlərinə diqqət yetirilməsinin xeyrinə inandırıcı arqumentlərə baxmayaraq, bank bu göstəricilərin saxlanıldığı təqdirdə, bu sahələrdə tənzimləmə və hüquqi mühitin qiymətləndirilməsinin düzgün üsulunu diqqətlə düşünməlidir" [20].

Prosedurun tamamlanmasında tələb olunan vaxtın ölçülməsi üçün biznesin aparılması meyarları bəzi sadələşdirilmiş fərziyyələrə əsaslanır: “hər bir prosedur üçün tələb olunan minimum vaxt 1 gündür. Prosedurlar eyni zamanda həyata keçirilə bilər, baxmayaraq ki, onlar eyni gündə başlaya bilməzlər (yəni eyni vaxtda prosedurlar ardıcıl günlərdə başlayır)”. Bu fərziyyələr xüsusilə eyni zamanda bir və ya bir neçə proseduru başlaya və ya tamamlaya bilən və buna görə də son nəticədə reytinqi aşağı düşən ölkələr tərəfindən müəyyən tənqidə səbəb olmuşdur.

Dünya Bankı eyni meyarların bütün ölkələrə tətbiq edildiyini və buna görə də qeyri-obyektiv nəticələr verməyəcəyini bildirmişdir. 2014-cü ildə DB vaxt göstəricisinin tətbiqində mümkün təhriflər riyazi statistika (iqtisadiyyatın, demoqrafiyanın və statistikanın İtalyan icmalı) saytında dərc edilmiş elmi məqalədə nümayiş etdirilmişdir [21].

Beləliklə, Dünya Bankı qismən meyarlara yenidən baxmış, telematika prosedurları üçün yeni fərziyyələr daxil etmişdir: "hər bir telematika proseduruna bir gün deyil, 0,5 gün verilməsi qeyd edilir və həmçinin, göstərilir ki, telematika prosedurları eyni vaxtda da keçirilə bilər".

**DB-nin “Diong Business 2020” hesabatında Azərbaycanda biznesin asan aparılmasının qiymətləndirilməsi**

Dünya Bankının “Diong Business” layihəsi aşağıdakı göstəricilər əsasında ölkələrin qiymətləndirilməsini aparır və bu zaman nələr yerinə yetirilir:

- biznesin asan aparılması (başlanması)-kişilər və qadınlar üçün məhdud məsuliyyətli cəmiyyətin yaradılması üçün prosedurlar, vaxt, xərclər və minimum ödənilmiş kapital;
- işçilərin işə qəbul edilməsi-məşğulluğun tənzimlənməsində rahatlığın olması;
- mülkiyyətin qeydiyyatı-kişi və qadınlar üçün torpağın mülkiyyət və keyfiyyət transferi üzrə idarəetmə sisteminin prosedurları, vaxt və dəyəri;
- tikintiyə icazə alınması-anbarın tikintisi üzrə bütün formallıqların yerinə yetirilməsi üçün prosedurlar, vaxt və xərclər, həmçinin tikintiyə icazələrin verilməsi sistemi üzrə keyfiyyətə və təhlükəsizliyə nəzarət mexanizmləri;
- elektrik təchizatı sisteminə qoşulma- elektrik şəbəkəsinə qoşulmanın prosedurları, vaxtı, dəyəri, elektrik təchizatının etibarlılığı, tariflərin şəffaflığı;
- müəssisələrin qeydiyyatı;
- kreditin alınması-daşınan əmlakın girovu haqqında qanunlar və kredit informasiya sistemləri;
- minoritar səhmdarların müdafiəsi-minoritar səhmdarların əlaqəli tərəflərlə sövdələşmələrdə və korporativ idarəetmədə hüquqları;
- vergilərin ödənilməsi - sənədlər təqdim edildikdən sonra bütün vergi qaydalarına, eləcə də proseslərə uyğun bir firma üçün ödənişlər, vaxt və ümumi vergi dərəcəsi, həmçinin onun ödənişi;
- beynəlxalaq ticarət - məhsulun idxal-ixracı üçün xərcləri, tələb olunan vaxt və sənədlərin sayı;
- müqavilələrin icra edilməsinin təminatı-kommersiya məqsədli mübahisəsinin həlli, kişilər və qadınlar üçün məhkəmə prosesinin keyfiyyətinə lazım gələn vaxt və xərclər;
- ödəmə qabiliyyətliliyə icazə alınması-kommersiya zamanı müflisləşmə zamanı və güclü hüquqi bazanın olmasına lazım gələn vaxt, xərclər, nəticələri və kompensasiya dərəcəsi.

2002-ci ildən etibarən mütəmadi olaraq dünya ölkələrinin (190 ölkədə) 11 göstərici əsasında müqayisəli təhlili aparılır və onların əldə etdiyi göstəriciləri əsasında reytinq cədvəli tərtib edilir. Dünya Bankının “Diong Business 2019” hesabatında biznesin asan aparılması istiqamətindəki təhlilin nəticəsinə əsasən Azərbaycan bu göstəriciyə görə 190 ölkə sırasında 25-ci yer almış və 96,2 bala qədər yüksəlmişdir. Bu göstəriciyə görə 2020-ci ildə Azərbaycan 9 pillə reytinqini aşağı salmış və 34-cü sırada yer almışdır.

Müqavilələrin icra edilməsinin təminatına görə 2020-ci ildə Azərbaycan reytinq sırasında 28-ci olmuş və 70,3 bal toplamışdır. Biznesin asan aparılması üzrə göstəricilərdə 190 ölkə içərisində Azərbaycan minoritar investorların müdafiəsi (105-ci sıra), beynəlxalq ticarət (83-cü sıra), elektrik təchizatı sisteminə qoşulma (80-ci sıra) və tikinti üzrə icazələrin alınması (59-cu sıra) göstəricilərindən başqa digər 8 göstərici üzrə də sıralanmada 47-ci sıradan aşağıda yerləşmişdir.

Keçmiş sovetlər ittifaqı və Avropa-Mərkəzi Asiya ölkələrində biznesin asan aparılması göstəriciləri üzrə fərqli reytinq sıraları əldə edilmişdir. Məsələn, müqayisə edilən ölkələr içərisində kreditin alınması üzrə 1-6-cı yerlərdə Azərbaycan -100 bal və ya 1 pillə, Gürcüstan -85 bal və ya 15-ci pillə, Rusiya-80 bal və ya 25-ci pillə, Ukrayna-75 bal və ya 37-ci pillə, Avropa-Mərkəzi Asiya ölkələri-72,2 bal və Belarus-50 bal və ya 104-cü pillədə yerləşmişlər. Kreditin alınması göstəricisi üzrə bu ölkələr içərisində Türkiyə və Polşa hər biri 37 bal almışlar [2, s. 30-35].

Əmlakın qeydiyyatı göstəricisinə görə Gürcüstan-92,9 bal və ya 5-ci pillə, Rusiya-88,6 bal və ya 12-ci pillə, Belarus 87,8 bal və ya 14-cü pillə, Avropa-Mərkəzi Asiya-75,8 bal, Azərbaycan-75,4 bal və ya 44-cü pillə və Ukrayna -71,3 və ya 61-ci pillədə yer almışlar. 2019-cu ilin göstə-

riciləri üzrə Avropa ölkələrindən Polşa, İtaliya, qonşu ölkələrdən Türkiyə və İran, həmçinin Səudiyyə Ərəbistanının məlumatlarına əsasən qeyd edə bilərik ki, bu ölkələr sırasında əmlakın qeydiyyatı göstəricisinə görə Azərbaycandan (9-cu sırada) və Səudiyyə Ərəbistanından (38-ci sıra) – sonra Türkiyə (77-ci sıra) yer almışdır.

Elektrik enerjisinin əldə olunmasına görə Rusiya-97,5 bal və ya 7-ci pillə, Belorus-90,3 bal və ya 20-ci pillə, Gürcüstan-92,9 bal və ya 42-ci pillə, Azərbaycan-77,3 bal və ya 80-ci pillə, Avropa-Mərkəzi Asiya-75,6 bal və Ukrayna -62,5 və ya 128-ci pillədə yer almışlar.

Tikintiyə icazələrin alınması göstəricisi üzrə Azərbaycan 2019-cu ildə keçmiş sovetlər ittifaqı ölkələri içərisində Litva, Estoniya, Ukrayna, Gürcüstan, Rusiya, Qazaxıstan, Belarus, Latviyadan sonra 9-cu sırada yerləşmiş və 190 ölkənin ümumi reytinqində 59-cu sırada yer almışdır. Həmçinin, ekektrik təchizatı sisteminə qoşulma göstəricisi üzrə 10 sırada yer almaqla 190 ölkə içərisində 80-ci olmuşdur. 2020-ci ildə isə Ukrayna -81,1 və ya 20-ci pillə, Gürcüstan-81,0 bal və ya 21-ci pillə, Rusiya-78,9 bal və ya 26-cı pillə, Belorus-75,2 bal və ya 48-ci pillə, Azərbaycan-73,9 bal və ya 59-cu pillə və Avropa-Mərkəzi Asiya-69,0 bal üzrə yer almışlar.

Beləliklə, 2008-2020-ci illər üzrə biznesin asan aparılmasında 11 indiqatora görə keçmiş sovetlər ittifaqı ölkələrində orta reytinq sırası Gürcüstanda 13, Estoniyada 19, Latviyada 21, Litvada 22 və Ermənistanda 39 təşkil etmişdir. Bu göstəriciyə görə 6-8 ci sıralarda müvafiq olaraq Azərbaycan (58), Belarus (59) və Rusiya (80) yerləri almışlar. Aparılmış tədqiqat göstərir ki, biznesin asan aparılması istiqamətində Azərbaycan həm 15 müttəfiq respublika, həm də 190 ölkə içərisində öndə yer alan ölkələr sırasındadır. Bütün bu qeyd edilənlər ölkəmizdə sahibkarlığın inkişafına dövlətin birbaşa dəstəyinin nəticəsi kimi qiymətləndirilə bilər. Fikrimizcə, ölkəmizdə yerli və xarici vətəndaşların bu istiqamətdə fəaliyyəti üçün müvafiq qayda, qanun, hüquqi norma və normativlərin vaxtında qəbul edilməsi və həyata keçirilməsinə nəzarət mexanizminin düzgün qurulması biznesin asan aparılmasını şərtləndirən mühüm aspektlərdir.

### *Nəticə*

Apardığımız tədqiqatdan əldə edilmiş məlumatlara əsaslanaraq qeyd edə bilərik ki, iqtisadiyyatın istənilən sahəsində biznes fəaliyyətinın səmərəli və keyfiyyətli aparılması məqsədilə Azərbaycanda hərtərəfli şərait formalaşmışdır. Bütün bunlar isə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" ndə nəzərdə tutulmuş beş strateji hədəfin yerinə yetirilməsi üçün işlənilmiş Tədbirlər Planı və Dövlət Proqramlarının qəbul edilməsi, həmçinin onların vaxtında icra edilməsi nəticəsində təmin edilir. Dünya ölkələri üzrə kiçik və orta sahibkarlığın ÜDM-də payı 63-67%, məşğulluqda payı isə 57-78% hüdudundadır. Biznesin asan aparılması üzrə müvafiq ölkələrin topladığı bal göstəricisinin təhlilinə əsasən keçmiş sovetlər ittifaqı ölkələri içərisində ilk beşlikdə Gürcüstan, Litva, Estoniya, Latviya və Azərbaycan yerləşmişdir. DB-nin "Doing Business" üzrə 190 ölkə içərisində apardığı hesablamalara əsasən belə bir nəticəyə gələ bilərik ki, Azərbaycan biznesin asan aparılması göstəricisinə görə 2019-cu ildə (78,64 bal) 25-ci pillədə və 2020-ci ildə (76,7 bal) 34-cü pillədə yer almışdır.

Biznesin asan aparılması üzrə 12 göstərici əsasında həyata keçirilən qiymətləndirmələr biznesin tənzimlənməsinin səmərəliliyi, keyfiyyəti və sadəliyini, həmçinin sahibkarların mülkiyyət hüquqlarının qorunmasının vacibliyi və keyfiyyətinin yüksəldilməsini şərtləndirən əsas məsələləri ehtiva edir. Biznesin asan aparılması indeksinin müəyyənləşdirilməsində məqsəd biznesin tənzimlənməsinin iqtisadi artıma təsirini ifadə edən tədqiqat işlərinin məlumatlarının asanlıqla əldə edilməsi və bu istiqamətdə qiymətləndirmənin aparılmasının təmin edilməsindən ibarətdir.

Fikrimizcə, bu qeyd edilənlər ölkəmizdə sahibkarlığın inkişafına dövlətin birbaşa dəstəyinin nəticəsi kimi qiymətləndirilə bilər. Odur ki, ölkəmizdə yerli və xarici vətəndaşların sahibkarlığın inkişaf etdirilməsi istiqamətində fəaliyyətinin təminatına cavab verən müvafiq qayda, qanun, hüquqi norma və normativlərin vaxtında qəbul edilməsi və həyata keçirilməsinə nəzarət mexanizminin düzgün qurulması biznesin asan aparılmasını şərtləndirən mühüm aspektlərdəndir.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı
2. "Doing Business 2020". Comparing Business Regulation in 190 Economies. World Bank Group
3. "Doing Business 2019". Comparing Business Regulation in 190 Economies. World Bank Group
4. Starting a Business (англ.). DoingBusiness.org. The World Bank Group
5. Dealing with Construction Permits (англ.). DoingBusiness.org. The World Bank Group
6. Getting Electricity (англ.). DoingBusiness.org. The World Bank Group
7. Registering Property (англ.). DoingBusiness.org. The World Bank Group
8. Getting Credit (англ.). DoingBusiness.org. The World Bank Group
9. Chile slams World Bank for bias in competitiveness rankings
10. World Bank Unfairly Influenced Its Own Competitiveness Rankings
11. Handbook of Entrepreneurship Research / Zoltan J. Acs, David B. Audretsch. — 2010. — doi:10.1007/978-1-4419-1191-9
12. Haidar J.İ.Impact of Business Regulatory Reforms of Economic Growth. -2012. vol.26. p.285-307
13. A. Baranov, E. Malkov, L. Polishchuk, M. Rochlitz, G. Syunyaev. Measuring Institutions in russian regions: Methodology, Sources of data, Analysis // Voprosy Ekonomiki. — 2015-02-20. - Вып. 2. - С. 69–103. - ISSN 0042-8736. - doi:10.32609/0042-8736-2015-2-69-103
14. Баринова В., Земцов С., Царева Ю. Предпринимательство и институты: есть ли связь на региональном уровне в России? // Вопросы экономики. — 2018. — № 6. — С. 92-116. — doi:10.32609/0042-8736-2018-6-92-116
15. ITUC-CSI-IGB – International Trade Union Confederation
16. Tamara Gausi (21 May 2014). New Global Index Elevates Workers' Rights over "Doing Business". Equal Times. Retrieved 30 May 2014; see also: ITUC Global Rights Index: The world's worst countries for workers
17. Лапшин В.С. Управление процессами. Саранск. 2015, 385 с.
18. Doing Business – Doing Business: An Independent Evaluation
19. Be careful when Doing Business
20. Los Angeles SEO _ DBRPanel SEO Los Angeles
21. Rivista italiana di economia demografia e statistica, 2014, Volume LXVIII, Issue 1, ideas.repec.org
22. https://ru.wikipedia.org/wiki/ Рейтинг_лёгкости_ведения_бизнеса
23. https://www.worldbank.org/en/news/immersive-story/2018/10/31/doing-business-2019-a-year-of-record-reforms-rising-influence
24. https://ru.wikipedia.org/wiki/Бизнес процесс
25. https://www.vedomosti.ru/management/articles/2019/01/09/790928-biznes-protsessov

***Вилаят Ибрагим Исмайлов***
***Азербайджанская Академия Труда и Социальных Отношений***

**Аспекты эффективного и качественного ведения бизнеса в Азербайджане на основе "Doing business"**

***Резюме***

В статье на основе данных "Doing Business" проанализировано текущее положение Азербайджана в сфере развития бизнеса в различных странах с точки зрения качественных показателей облегчения бизнеса.

Сравнив показатель баллов, набранных странами с точки зрения легкости ведения бизнеса в 190 странах мира, было установлено, что из стран бывшего Советского Союза в первой пятерке оказались Грузия, Литва, Эстония, Латвия и Азербайджан. В статье также указаны аспекты формирования необходимых условий для эффективного и качественного ведения бизнеса в нашей стране, в том числе для определения индексов показателей, принятых с точки зрения облегчения бизнеса.

***Цель*** – о пределение влияния регулирования бизнеса на экономический рост на основе анализа показателей эффективности и качества бизнеса в Азербайджане.

***Методология*** - в статье использованы методы общеэкономического, сравнительного и статистического анализа.

***Результат*** - заключается в формировании всесторонних условий для эффективного и качественного ведения бизнеса в Азербайджане, легком доступе к данным по исследованиям, отражающим влияние регулирования бизнеса на экономический рост, и обеспечении проведения оценки в этом направлении.

***Ключевые слова: бизнес, эффективность, качество, показатели, рейтинг, оценка.***

***Vilayat İbrahim Ismayilov***
***Azerbaijan Academy of Labor and Social Relations***

**Aspects of effective and high-quality business in Azerbaijan based on “Doing business”**

***Summary***

The article analyzes the current situation of Azerbaijan in the field of business development in various countries in terms of qualitative indicators of business facilitation based on the data of” Doing Business".

Comparing the scores of countries in terms of ease of doing business in 190 countries, it was found that Georgia, Lithuania, Estonia, Latvia and Azerbaijan were among the top five countries in the former Soviet Union. The article also points out the aspects of creating the necessary conditions for effective and high-quality business in our country, including for determining the indices of indicators adopted from the point of view of business facilitation.

***Purpose of the research*** - determining the impact of business regulation on economic growth based on the analysis of business performance and quality indicators in Azerbaijan.

***Methodology -*** the article uses the methods of general economic, comparative and statistical analysis.

***Findings*** - it consists in creating comprehensive conditions for effective and high-quality business in Azerbaijan, easy access to research data reflecting the impact of business regulation on economic growth, and ensuring that assessments are carried out in this direction.

***Key words: business, efficiency, quality, indicators, rating, evaluation.***